# Qayalarda mamır olub bitənim...

**Nə yaxşı ki... deyək...**

İnsan dünyaya gəldikdə vicdanı da, əqidəsi də onunla birgə doğulur. Və illər keçdikcə yaşadığı mühit onu xarakterik olaraq formalaşdırır. Gördükləri, eşitdikləri və duyduqları onun vicdanında özünə yer alır. Hər yaş bu xarakteri daha da zənginləşdirir və insan obrazlı şəkildə yaşamına davam edir.

Vətən məfhumu, ana nəvazişi birləşərək insanda mənəvi zənginlik yaradır. Mənəvi zənginlik insanın insan kimi formalaşmasında müstəsnadır. Məhz mənən zəngin insanlar vətəndaş olaraq vətənpərvər kimi yetişirlər. Belə vətənpərvərlər öz torpağının hər qarışı, xalqının hər övladının firavan yaşamı üçün daima müsəlləh əsgərə çevrilərlər. Bu tarix boyu yaşanılan müharibələrdə, ən çətin anlarda faktiki olaraq özünü göstərmişdir.

Bəzən insan fərqinə varmadan həyatda üzləşdiyi hadisələri, hətta xırdalıqları belə çözməyin asan yollarını düşünmədən problemə çevirir. Həyatında yaşanılan hər adi bir hərəkətin gələcək həyatda iz buraxdığını və buraxacağını düşünmür. İnsan hər bu gününü yaşarkən o yaşamın sabahını düşünmədə ifrata varmamalıdır. Sabahını düşünərək, qoruyaraq bu gününü yaşamalıdır ki, sabahlarda "kaş ki..." yox, "nə yaxşı ki" deyə.

İnsan ömrü ağ vərəq kimi başlanır və hər günü o ağ vərəqə yazılır. Yazılan hər şey düzü və əyrisi ilə, yaxşı-pisiylə birgə ömür adlanır. Bu ömrü yaşarkən vicdanın səsinə "qulaq kəsilsə" insan həyat yaşamının ağ, qara, qırmızı cizgilərini təyin etmiş olur. Və bu cizgilər ömür salnaməsinə bir özünəməxsusluğu əks etdirərək cızılır. Ömrün ən gözəl yazısı isə cığır açacaq yaşıl "rəngli" cizgilərdir.

Yaşıl rəngli cizgiləri seçib özününküləşdirənlər həyat salnaməsinə, tarixin xronologiyasına iz salanlardır.

**Vəndamlımı, bakılımı?..**

Dünyaya göz açdığın, havasını udduğun, suyunu içdiyin, torpağına ayaq basdığın məkandan başlanır Vətən! Sonra nəsillər bir-birini əvəz etdikcə o torpaqda məskunlaşırsa insan, o torpaq vətənləşir və xalqının nümayəndəsi olsa da vətənləşən məkan vətəni sayılır. Şəhriyar Əlibəyli də qədim Qəbələnin Vəndam qəsəbəsində (kəndində) dünyaya göz açmışdır. Bakıda bir müddət yaşadıqdan sonra ailə vəziyyəti ilə əlaqədar Vəndama köçmüş və qəsəbə 1 saylı orta məktəbin şagirdi olmuşdur. İbtidai sinfin sonuncu ilində isə yenidən Bakı şəhərinə köçmüş, orada məskunlaşmışdır.

**Körpəlikdən deyilən söz...**

Vəndam 1 saylı məktəbin I sinfinə qəbul olunarkən Bilik günündə onun oxuduğu şeirlər hamının marağı və alqışları ilə qarşılanmışdı. Bilirsiniz hansı şeiri oxumuşdu öncə? Məmməd Arazın "Vətən mənə oğul desə..." şeirini. Müəllim və məktəb şagirdləri onun intonasiya ilə dediyi bu şeiri alqışlamış və bir çoxlarının gözləri yaşarmışdı... Anası isə şeiri Şəhriyarın özü öyrəndiyini demişdi... Onun ilk müəllimi, məktəbin ibtidai sinif müəllimi Gülnaz Musayeva olmuşdur.

O şeirlə demişdi sanki Şəhriyar Əlibəyli öz sözünü... məram-məqsədini, arzusunu. Sözündə bütöv biri idi, dəqiq idi. Körpə ikən dedi də, sözünə əməl etdi də... Mamır olub qayalarda bitən bir ömrü seçdi.

*Ayazlı, şaxtalı qış küləkləri,*
*Təzə çiçəkləri tez tapır yaman...*

Əlibəyli Şəhriyar Ramiz oğlu... 1994-cü ildə Vəndam qəsəbəsində dünyaya göz açmışdır.



Vəndam 1 saylı orta məktəbin ibtidai sinfində təhsil almış və orta təhsilini Bakıdakı 236 saylı məktəbdə davam etdirmişdir. 9-cu sinfi bitirdikdən sonra Cəmşid Naxçıvanski adına hərbi litseyə daxil olmuş, daha sonra isə Azərbaycan Ali Hərbi Məktəbindən məzun olmuşdur. O hələ körpəlikdən hərbçi sənətinə meylli idi. Hərb sənətini kişilik məktəbi sanan Şəhriyar ata-ananın tək övladı idi. Anası onun başqa sənət seçəcəyini xəyal etsə də övladının fikrinin qəti olduğunu yəqin etdi və ona xeyir-dua verdi.

Şəhriyar milli-mənəvi cəhətdən çox zəngin bir gənc idi. Ailəsinə bağlı biri idi. Anasının arzularına hörmətlə yanaşardı və onları reallaşdırmaq üçün qəlbində xəyal toplumu yaratmışdı. O xəyalları birbəbir gerçəkləşdirirdi. Həqiqət, gerçəklik vicdanın əsası idi. İnsanları ən adi hərəkətlərindən, danışıq tərzindən tanıyır və özlüyündə qiymətləndirirdi. Dost kimi dost, övlad kimi övlad, nəvə kimi nəvə idi. Dediyi hər kəlmə əzizlərinin yaddaşında bir məsəl, yazdığı hər söz telefon yaddaşlarında nümunəvi, örnək kimi kəlamlar. Şəhriyarın xalalarına yazdığı mesajların oxucusu oldum. Bu yazdıqları öncəgörənlik kimi qəhrəmanlıq, şəhadətlik üçün bir məsəllər, mesajlar... Ən adi bir misal:

- Aldın dərmanı?
- Xala, torpağım dərman oldu, - dedi!

Bu 2020-ci ilin noyabrında, Zəfər qazanılan bir ərəfədə (12 noyabr) yazılmış cavab idi. Zəfər - qisas müharibəsinin qələbəsi, torpağının düşmən tapdağından azad olması onun dərmanı olmuşdu. Vətənpərvər biri yalnız mənəvi cəhətdən zəngin olan kəsdir. O isə gənclik həyatını acısı ilə, şirini ilə yaşayan Şəhriyar və onun kimi insanlardır.

Baş leytenant Şəhriyar 2020-ci ilin sentyabrında - Vətən müharibəsi başlanan dövrdə könüllü olaraq Xüsusi Təyinatlı Qüvvələrin qrupuna qoşularaq həmişə ön sırada olmuş, torpaqlarımızın azad olunmasında qəhrəmanlıq döyüşmüşdür. Şəhid olan və sağlamlığını itirən döyüşçü dostlarının qisasını faşist ideologiyalı, əqidəli mənfur ermənilərdən almışdır. Şuşa uğrunda gedən döyüşlər zamanı Şuşaya ilk qalxan iyirmiliklərdən biri də Şəhriyar Əlibəyli olmuşdur. Onun silahdaşları və xüsusilə ən yaxın dostu, yeniyetməlik çağlarından özünə qardaş bildiyi Orxan Şəhriyarın necə bir insan - gənc olduğunu daha ürəklə söyləyir. Onu "Qurdlar vadisi" kinofilmindəki Mematiyə bənzədildiyini, qorxmaz, düşüncəli bir hərbçi olduğunu deyirlər. Azərbaycanın Milli Qəhrəmanı, eloğlusu Polad Həşimov kimi insanlıqda zirvəni məskən seçən biri idi Şəhriyar. Polad qəhrəmanımızın döyüş əqidəsi, hərbçi həyatı Şəhriyar ömrünün əsası



idi və təsdiqini də öz hərbçi fəaliyyəti ilə dəqiqləşdirdi. Təkcə ürəklərə girmədi o, ürəklərdə əbədi məskən saldı.

M. Araz dediyi kimi:

*Ürəyə girməyi bacarmaq azdır,*
*Ürəkdə qalmağı bacarmalısan!..*

Tarixi yenidən yazan Şəhriyar Əlibəyli Zəfər tarixinin qəhrəmanı kimi "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı", "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdu. Müharibə qurtarandan sonra boynuna asdığı tanınma nömrə nişanını anasına təqdim edərək bunu xatirə kimi saxlayaq demişdi. Anası isə yeni aldıqları, hələ Şəhriyarın ürəklə yaşamadığı evə onun əşyalarını xatirə kimi yerləşdirəcəyini düşünürdü...

Şəhriyar Əlibəyli Zəfər qazanıldıqdan sonra da öz hərbçi peşəsini davam etdirirdi. Vətənin ayıq-sayıq əsgəri olmaq onun sevdiyi peşəsinin əsası idi. Öz peşəsini, öz işini ləyaqətlə yerinə yetirərkən Şuşa fatehi, Xüsusi Təyinatlıların baş leytenantı olan Şəhriyar Rusiya sülhməramlılarının nəzarət bölgəsində Xankəndi - Xəlfəli - Turşsu yolunda erməni təxribatının qarşısını alarkən 2023-cü il martın 5-də şəhid oldu...

Şəhriyar ömrünün bahar çağını əbədiləşdirdi, əbədiyyən bahar ömürlülüyü "seçdi"...

Sanki şair illər öncə yazdığı şeiri onun bu ömrünə həsr etmişdi:

*...Ayazlı, şaxtalı qış küləkləri,*
*Təzə çiçəkləri tez tapır yaman...*
*Gəl yazın ətirli nəfəsi kimi,*
*Gizlən saçlarımın arasında sən.*
*Səhər günəşinin zərrəsi kimi,*
*Düşüb qal gözümün qarasında sən!*

Anasının, atasının saçlarında gizləndi, gözlərinin qarasında düşüb qaldı Şəhriyar! Ürəklərinə köçdü, sözlərinə köçdü, nəfəslərinə köçdü... O nəfəslər bundan sonra yalnız onun arzularını yaşatmaq xatirinə var olacaq...

**Şəhriyar arzusu**

Bir atanın, ananın ümid yeri, yaşam səbəbi, həyatının mənası ömrünü həsr etdiyi övladıdır. Sahilə və Ramiz Əliyevlərin bir övladı var idi. Ta uşaqlıqdan Vətənə, torpağa, xalqına sevgi dolu bir övlad. Vətən mənə oğul desə kəlamlı şeir onun dilinin əzbəri, "Əsgər marşı" isə ən çox sevdiyi nəğmə idi. Uşaqlığı dövrünə təsadüf edən xarakterik bir nəğmə, marş... "Vətən məni yetişdirib bu yerlərə yolladı...". İllər bir-birini əvəz etdikcə ürəyinin arzusu ilə bərabər böyüdü. Valideynləri onun istəyini dəyişə bilmədilər: Hərbçi geyimi geymək, Vətənin daimi müsəlləh əsgəri olmaq arzusu qanına hopmuşdu!

Sahilə müəllimənin vətənpərvər və insanlıq xisləti tam mənada Şəhriyarda cəmləşmişdi. Onun istəklərinin, arzularının simvolu idi Şəhriyar. Ana hər gününün qəhrəmanı, yaşamının səbəbkarı sanırdı övladını. Əlbəttə, bu təbii hal idi. Ancaq onun arzularının müdafiəçisi idi həm də övladı. Övlad-valideyn sevgisinin canlı təzahürü olduğu üçün də bu gün Vətən qəhrəmanı kimi yetişdi Şəhriyar. Sözünə, hərbi andına sadiq, ata-ana sevgisinə yüksək qiymət verən, dost, vətən, insanlıq üçün canını fəda edən biri kimi yaddaşlara iz saldı... Elə ona görə də ana baxışlarından oxunur:

*İnam pilləsində yıxılan oldu,*
*Çökdü süfrəmizin süstlü dumanı.*
*Tikanlar göyərdi könül yaramda,*
*Getdi həyatımın baş qəhrəmanı...*

Yox, o getmədi, o, qəlbinə köçdü, o, neçə-neçə körpənin arzu karvanına yolçu oldu. O, onu tanıyanların göz yaddaşında, ürəklərində əbədi məskən saldı... O, sevdiyi qızın könül dünyasını param-parça etsə belə, sevginin gücünün sehrini əbədiləşdirdi... Şəhadətə qovuşaraq əbədi bir həyat, ölümsüzlük qazandı.

Bakıda II Fəxri Xiyabanda dəfn olunan Şəhriyarı nəsillər ziyarət etdikcə, məzar daşını and yerinə çevirdikcə o yenidən doğulacaq, yaşayacaq! Eloğlum Polad Həşimov əqidəli eloğlum Şəhriyar Əliyev də tək sizlərin deyil, xalqın övladı kimi qəhrəmanlıq simvoluna çevrildi və tarixin yaddaşına köçdü. Milli Qəhrəmanımız Polad Həşimovun yolunu özünə örnək, düzgün yol kimi seçən Şəhriyar bu gün ona daha yaxın bir məkanı seçdi...

Onun arzularını həyata keçirmək bir ata, bir ana kimi yaşam tələbiniz! Şəhriyar arzularını gerçəkləşdirmək bu gün vətənpərvər insanların həyat yolu, arzu yolu... Bütöv və azad səmalı Azərbaycan - Şəhriyar arzusu bu!

**Bibixanım İSAYEVA.**

# Güllər gözəl görünməyəcək

2022-ci ilin oktyabrın 25-i çox sevincli bir ailə və xoşbəxt bir gün. Yeganə övladlarının 28 yaşını qeyd edirlər və onun boynuna böyük bir öhdəlik qoyurlar ki, növbəti yaşına qədər bizi sevindirəcəksən. Oğul buna söz verir və yenidən Vətənə xidmət üçün hərbi hissəyə geri dönür. O gündən başlayır Sahilə anayla Ramiz atanin gözəl xəyalları. Xəyal onlari çox-çox irəli aparır....

Artıq yeganə oğulları olan Şəhriyarın toyuna hazırlaşırlar. Ana sevincindən kövrəlir. Çox təəssüf ki... Yenə ana kövrəkdi. Ancaq səbəb başqa...

5 mart 2023-cü ildə Xankəndi-Xəlfəli-Turşsu yolunda qeyri-qanuni erməni birləşmələrinin Azərbaycan ordusuna qarşı törətdiyi təxribat nəticəsində Şəhriyar Ramiz oğlu Əlibəyli şəhid oldu. Həmin gün telefonlar, sosial şəbəkələr ancaq bu xəbəri paylaşdılar. O gözəl xəyalların içində xoşbəxt yaşayan bəxtəvər ana xeyli sonra bu xəbəri eşitdi. Bir ananın arzusunu qəlbində dəfn etdi bu xəbər...

Hər şey tərsinə oldu. 8 mart günü anasına çoxlu güllər hədiyyə edən və anasını cürbəcür gözəl çiçəklərə qərq edən Şəhriyarın özü güllər içində uyuyurdu... səssiz-səmirsiz...

Şəhriyar bilirdi ki, anası gülləri çox sevir. Amma daha bilməyəcəkdi ki, onlar Sahilə ana üçün öz dəyərini itirib; bəzən güllər də dəyərim itirirmiş... "Mən Vətənin su yu ilə, çörəyi ilə qidalanıramsa, havasını udub torpağında gəzirəmsə, deməli, mən bu Vətənin oğluyam, onu anam kimi sevməlı və göz bəbəyim kimi qorumalıyam" - dedi Şəhriyar!

Xalq daha bir cəngavər qəhrəmanını itirdi.

Başın sağ olsun, Vətən! Şəhriyar Əlibəyli artıq bütün xalqın ürəyində yaşayacaq, xalq onu böyük ehtiramla yad edəcəkdir.

Gülləri çox sevən Sahilə müəllimənin ürəkləri parçalayan o sözləri isə artıq milyonların dilində bir aforizmə çevrildi:

"Arxada qalan güllərim... daha çiçəkləməyin... gözəl olsanız da gözlər sizin gözəlliyinizi görməyəcək"...

**Cahandar ÇƏLƏBİZADƏ,**
**Vəndam qəsəbə 1 saylı məktəbin şagirdi.**